AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI

*Əlyazma hüququnda*

**MƏHƏMMƏD DAVUD OĞLU ƏLİYEV**

# TÜRKİYƏ VƏ AZƏRBAYCAN KERAMİKASININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**İxtisas:** 6218.01– "Dekorativ-tətbiqi sənət"

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2016**

Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "İncəsənət tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdi

**Elmi rəhbər:** Kübra Muxtar qızı Əliyeva
sənətşünaslıq üzrə elmlər doktoru, professor,
Əməkdar İncəsənət xadimi

**Rəsmi opponentlər**:

**Aparıcı müəssisə:**

Dissertasiyanın müdafiəsi 2016-cı ilin .05.... ayının 26....saat"____" Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində yaradılmış Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1029, Bakı ş., H.Əliyev prospekti, 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" __________ 2016-cı il tarixində göndərilmişdi.

FD.02.191 Dissertasiya Şurasının
elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru: X.Z.Əsgərova

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı**. Yaxın Şərq regionunda yerləşən Türkiyə və Azərbaycan ölkələrini həm qədim, həm də müasir, yeni tarixin hadisələri birləşdirir. Regional yaxınlıq və bilavasitə qonşuluqdan əlavə hər iki ölkə eyni mədəniyyətə mənsubdur. Yəni, etnik baxımdan bu ölkələr türk mədəniyyətinə, dini cəhətdən İslam dünyasına, İslam mədəniyyətinə aid edilir.

XVI-XVII əsrlər hər iki ölkənin siyasi, iqtisadi, mədəni çiçəklənməsi dövrü kimi səciyyələnir. Bu dövrdə keramika istehsalı yerli bədii sənətinin aparıcı sahəsi olmuşdur. Türk bədii təfəkkürünün mahiyyəti, göstərilən dövrdə Türkiyənin intellektual və bədii elita nümayəndələrinə xas olan estetik prinsiplər və obrazlar sistemi məhz keramika məmulatlarında özünü qabarıq şəkildə nümayiş etdirirdi. Həmçinin, XVI-XVII əsrlərdə Azərbaycanda istehsal olunan keramika məmulatları da elmi mübahisələr doğuran və müzakirələrə səbəb ola bilən problem kimi görünmür. Səfəvilər dövlətində mədəniyyətin çiçəklənməsi ümumən məlum olan və qəbul edilmiş tarixi faktdır. Buna uyğun olaraq, keramika istehsalı da bir tərəfdən həmin mədəniyyətin ayrılmaz hissəsi, eyni zamanda həmin çiçəklənməyə təkan vermiş istehsalat və yaradıcılıq sahələrindən biri idi.

Iki dövlətdə eyni vaxt kəsiyində keramika sənəti əsasında mədəniyyətin durumunun paralel şəkildə təhlil olunması sözsüz ki, böyük maraq kəsb edir. Bu, hər iki ölkənin eyni regiona – yəni Yaxın Şərq regionuna aid olmasından, və həm tarixi, həm də siyasi cəhətdən bir çox oxşar cəhətlərə malik olmasından irəli gəlir. Deməк, tədqiq edilən material yarandığı mədəniyyətdə o zaman mövcud olan durumu özündə spesifik formada və tam şəkildə əks edir.

Beləliklə, hazırkı tədqiqatın mövzusu maddi mədəniyyətin iki nəhəng kütləsinin təhlil olunmasını nəzərdə tutur. Bu iki kütləni təşkil edən keramika məmulatları bir tərəfdən sənət əsəri olaraq, digər tərəfdən həmin ölkələrdə məişətin ayrılmaz hissəsini təşkil edirdi.

Türkiyə və Azərbaycan mədəniyyətində ənənəvi olaraq üstün, prioritet istiqamətlərdən biri hesab olunan keramika istehsalı sahəsində bədii məhsulun

müqayisəli təhlili elmi maraq kəsb edərək aktual hesab olunur. Bu cür tədqiqatlar nəticəsində yeni faktlar və arqumentlər üzə çıxır ki, bu da Azərbaycan və Türkiyə arasında mədəniyyət sahəsində əməkdaşlığın möhkəmlənməsinə təkan verir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Azərbaycan və Türkiyə bədii keramikasının öyrənilməsində bir çox Azərbaycan və xarici tədqiqatçıların böyük əməyi olmuşdur. Onların arasında C.Fortnum və A.Jakmarın[1], Lane A.A.Later[2], K.Otto-Dornun[3] adlarını xüsusən qeyd etmək lazımdır.

Türk tədqiqatçılarının elmi əsərlərinin arasında Atasoy N., Raby J.[4] "Iznik: The Pottery of Ottoman Turkey", Sitare Turan Bakır "İznik çiniləri və Gülbenkyan koleksiyonu"[5], Laure Soustiel "Osmanlı Seramiklerinin Görkemi. XVI-XIX yuzyıl Suna-İnan kıraç ve Sadberk Hanım Müzesi koleksiyonlarından" [6] və b. qeyd etmək lazımdır.

Rusiya mütəxəssislərinin türk keramikasına aid apardığı tədqiqatların arasında – Y.Millerin "Искусство Турции"[7] və "Художественная керамика Турции"[8] elmi əsrləri mühüm yer tutur. Ondan əlavə İ.A.Orbelinin "Мусульманские изразцы"[9] əsəri, E.K.Kverfeldtin "Керамика Ближнего Востока"[10] əsəri, V.S.Qarbuzovanın "Из истории производства малоазийских фаянсов в XIII-XIX вв."[11] məqaləsi də hazırkı tədqiqat üçün böyük əhəmiyyət kəsb edir.

Azərbaycan keramikasının öyrənilməsində E.Künelin[12] və A. Poupun[13]tədqiqatlarının böyük rolu olmuşdur. Azərbaycan alimlərindən N.

---

[1] C.O.E. Fortnum. A Descriptive Catalogue of the Maiolica, London, 1873, 699 p.; A Jacquermart. Histoire de la ceramique. Paris, 1884, 778.

[2] A. Lane. The Ottoman Pottery of İznik "Ars Orientalis", vol. II, 1956; İslamic Pottery. Persia, Syria, Egypt and Turkey. London, Faber and Faber, 1957, 133 p.

[3] K.Otto-Dorn. Das İslamische İznik, Berlin, 1941, 209 p; Otto-Dorn K. Turkische Keramik. Ankara, Türk Tarih Kurumü Basimevi, 1957, 133 p.

[4] Atasoy N., Raby J. Iznik: The Pottery of Ottoman Turkey. London: Alexandra Press, 1989, 384 p.

[5] Sitare Turan Bakır. İznik çiniləri və Gülbenkyan koleksiyonu. Ankara, Kültür Bakanlığı Yayınları/2338. Osmanlı Eserleri Dizisi/15, 1999, 368 s.

[6] Laure Soustiel. Osmanlı Seramiklerinin Görkemi. XVI-XIX.Yuzyıl. Suna-İnan kıraç ve Sadberk Hanım Müzesi koleksiyonlarından. Katalog. İnstitut de France. Jacqemart – Andrè Müzesi. Paris. 1 Nisan – 2 Temmuz 2000, 222 s.

[7] Е.Миллер. «Искусство Турции». М.-Л., "Искусство", 1965, 105 s.

[8] Е.Миллер. Художественная керамика Турции. Л.: Аврора, 1972, 184 s.

[9] И.Орбели. Мусульманские изразцы. Пб., 1923, s.

[10] Э.Кверфельдт. Керамика Ближнего Востока.

[11] В.Гарбузова. Из истории производства малоазийских фаянсов в XIII-XIX вв. // Ученые записки ЛГУ. Серия востоковедческих наук, вып.7. Изд-во Ленинградского университета, 1958. №256. сс. 21-40.

[12] E.Künel. Die Kunst des İslam. Stuttgart, Kröners, 1962, 231 s.

Nəcəfova[14], N.Rzayev[15], R.Əfəndiyev[16], Ç.Qacar[17] və bir sıra başqaları da öz elmi tədqiqatlarını Azərbaycan keramikasının inkişafının ayrı-ayrı mərhələlərinin təhlilinə həsr etmişdi. Tədqiqat materialın ümumiləşdirilməsində "Azərbaycan memarlığı tarixi"[18], "Azərbaycan tarixi"[19] və bir çox başqa tədqiqatlar[20] çox əhəmiyyətli rol oynamışlar.

Nəhayət, material üzərində işlərin aparılmasında İslam keramikası üzrə zəngin kolleksiyalara malik Nyu-Yorkun Metropoliten muzeyinin (ABŞ) və Londonun "Viktoriya və Albert" muzeyinin (Böyük Britaniya) rəsmi saytlarının da böyük rolu olmuşdur.

Adı çəkilən mənbələrin hər birində müəyyən səviyyəli və öyrənilmə dərəcəsinə malik məlumat (tarixi yaxud analitik təhlil, statistik məlumat, növ yaxud üslub təsnifatı, bu və ya digər obrazların və ornamental sxemlərinin semantikası və b.) göstərilir. Bununla yanaşı, tam əminliklə demək olar ki, sadalanan mənbələrin heç birində hazırkı tədqiqatın tələblərini ödəyə bilən tam, hərtərəfli panorama verilmir. Bu vaxta qədər xüsusi olaraq keramika sənətinin qonşu xalqlarla, o cümlədən Türkiyə ilə çoxəsrlik və hərtərəfli mədəni əlaqələr kontekstində onun inkişafı tarixinə, sənətşünas təhlilinə və geniş materialın ümumiləşdirilməsinə həsr olunmuş araşdırmalar mövcud deyildir.

**Tədqiqatın əsas məqsədi və vəzifələri**. Elmi tədqiqatın əsas məqsədi iki həmsərhəd ölkənin keramika məmulatlarının oxşar və fərqli xüsusiyyətlərini üzə çıxarmaq və hər iki ölkədə keramika sənətinin bədii xüsusiyyətlərini müəyyən tarixi mərhələdə (ən əsas konkret olaraq çiçəklənmə dövründə) öyrənməkdən ibarətdir.

---

[13] A.Pope. A Survey of Persian Art. From Prehistoric times to the Present Editor. IV,V.VI. Oxford University Press, London and New-York. 1939, pp. 1638-1665.
[14] Наджафова Н. Художественная керамика. Баку: Язычы, 1983, 40 с.
[15] Рзаев Н.И. Художественная керамика Кавказской Албании. Баку: изд-во АН Азерб.ССР. 1964, 140 с., илл.
[16] Əfəndiyev R. Azərbaycan xalq sənəti. Bakı: İşıq, 1984, 204 s.
[17] Каджар Ч. Искусство Азербайджана. Средние века. Баку, б/г, 348 с.
[18] М. Усейнов, Л. Бретаницкий, А. Саламзаде. История архитектуры Азербайджана. М.: Гос. Изд-во литературы по строительству, архитектуре и строительным материалам. 1963, 396 с.,
[19] История Азербайджана в 3-х томах. Баку: Изд-во АН Азербайджанской ССР, 1958, т.1, 424 с.
[20] Məmmədov A.Salyan. Dəmir dövründən orta əsrlərədək. Tarixi-arxeoloji icmal. Bakı: Elm, 2011, 64 s; Агамалиева С.М. Гончарство Азербайджана. Историко-этнографическое исследование. Баку: Элм, 1987, 136 с.; Ахмедов Р.Дж. Керамика Баку. IX-XVII вв. Баку: Элм, 1992, 152 с.; Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа XIV-IX до н.э. Баку: Элм, 1989, 128 с.

Deyilən məqsədə nail olmaq üçün iddiaçı tədqiqatda qarşısına aşağıdakı vəzifələri qoymuşdur:

1. keramika istehsalının çiçəklənməsinin ilkin şərtlərini müəyyən etmək məqsədi ilə hər iki ölkədə (Türkiyə və Azərbaycan) keramika istehsalının təşəkkül tapmasının və inkişafının tarixi şərhini vermək;

2. elmi dövriyyədə olan hər iki ölkədə (Türkiyə və Azərbaycanda) istehsal olunmuş keramika məmulatlarının ən parlaq nümunələrinin növ, istehsal texnologiyaları, koloristik və ornamental həlli, əsas kompozisiya sxemləri üzrə təhlil etmək;

3. Türkiyə və Azərbaycan keramikasının tipoloji xüsusiyyətlərini üzə çıxararaq bir biri ilə əlaqəsini müəyyən etmək;

4. həmsərhəd ölkələrdə istehsal olunmuş keramikanın oxşar və fərqli cəhətlərinin müqayisə etmək;

5. əldə edilmiş nəticələri hər iki ölkənin (Türkiyə və Azərbaycan) mədəniyyətinin durumu kontekstində təhlil etmək, mədəni və mənəvi həyatın əsas xarakteristikalarının keramika məhsulları ilə səbəb-nəticə əlaqəsini üzə çıxarmaq, həmin əlaqəni hər iki ölkədə öyrənilən dövrdə ayrı-ayrı yaradıcılıq sahələrinin və intellektual həyatın arasında qarşılıqlı fəaliyyətin və qarşılıqlı təsirin xüsusi bir hadisəsi kimi göstərmək.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyektini Türkiyə, Cənubi və Şimali Azərbaycanda yaranmış keramika məmulatları təşkil edir. Tədqiqatın predmetini Türkiyənin və Azərbaycan keramika məhsulunun bədii xüsusiyyətlərinin üzə çıxarılması, müqayisəsi və mənəvi həyatın başqa hadisələri ilə əlaqəsi təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Problemin həllində müasir kompleks və fənlərarası yanaşma prinsipindən, araşdırmalar üçün lazımlı olan, verilən bədii materialın sosioloji-fəlsəfi baxımdan araşdırılması tarix, arxeologiya, etnoqrafiya, linqvistika və folklorşünaslıq elmləri ilə qarşılıqlı əlaqədə öyrənilməsindən istifadə olunur. Tədqiqat işində materialın sənətşünaslıq, müqayisəli-tarixi, semantik və kulturolojı təhlili metodundan istifadə edilib. Beləliklə, orta əsrlər dövrünə aid Azərbaycan keramika sənətinin atributiv və az məlum olan abidələrinin araşdırılması

imkan verir ki, bu sənətinin tarixi təkamülü Türkiyə mədəniyyəti ilə çox şaxəli və çoxəsrlik əlaqələrin inkişafı kontekstində təhlil edilən xalq incəsənətinin bir növü kimi tədqiq edilsin.

**Tədqiqatın hüdudları**. Dissertasiyanın coğrafi sərhədləri əsas etibarilə orta əsr Azərbaycan və osmanlı Türkiyənin ərazisini əhatə edir. Digər tərəfdən məlumdur ki, hər iki dövlət orta əsrlərdə qonşu ölkələrlə çoxşaxəli ticari və mədəni əlaqələr saxlayaraq inkişaf etmişdir. Bu baxımdan tədqiqat işinə Azərbaycan və Türkiyə ilə həmsərhəd olan qonşu ölkələrin də keramika nümunələri cəlb olunmuş və müqayisəli şəkildə tədqiq olunmuşdu.

Tədqiqatın tarixi-xronoloji hüdudları hər iki ölkədə keramika sənətin yaranma tarixindən başlayaraq onların çiçəklənmə dövrünə (XVI-XVII əsrlər) kimi kifayət qədər uzun tarixi dövrü əhatə edir. Qoyulmuş məqsədə çatmaq üçün və müəyyən hadisələrin arasında olan səbəb-nəticə əlaqələrini üzə çıxarmaq məqsədi ilə müəllif xronoloji hüdudlarını xeyli genişləndirərək erkən orta əsrlər dövründə yaradılan keramika nümunələrinə də müraciət edir. Digər bir tərəfdən, belə əhəmiyyətli bir zaman diapazonunun seçilməsi imkan verir ki, dekorativ-tətbiqi sənətin bu növünə aid geniş arxeoloji, təsviri və etnoqrafik material cəlb edilsin, bu da Azərbaycan və Türkiyə keramika sənətinin genezis və təkamülünün daha bitkin mənzərəsini bərpa etməsinə şərait yaradır.

**Tədqiqatın elmi yeniliyi**. İşin elmi yeniliyi ondadır ki, burada ilk dəfə olaraq:

- Türkiyə və Azərbaycan keramika məhsulunun xarakterizə edilmiş və pərakəndə şəkildə mövcud olan material artıq bir yerə toplanaraq kompleks şəkildə miqyaslı tədqiqatın obyektinə çevrilmişdir;
- orta əsrlərdə Türkiyə və Azərbaycanda istehsal olunmuş keramika məmulatlarının bədii xüsusiyyətlərinin ilk dəfə olaraq dəqiq təsviri və müqayisəli təhlili verilmiş, onların arasında olan oxşar və fərqli cəhətlər üzə çıxarılmışdı;
- hər iki ölkədə keramika istehsalının formalaşması və inkişafı tarixi, göstərilən dövrlərdə keramika məhsulunun bədii xüsusiyyətləri vahid bir sistem şəklində təqdim olunmuş, onların arasında olan səbəb-nəticə əlaqələri üzə çıxarılmışdı;

- keramika məmulatlarının quruluşu və forması türk xalqları olan Azərbaycan və Türkiyə üçün səciyyəvi olan dünyanın rəsmi ilə əlaqədə tədqiq olunmuşdu;

- orta əsrlər Türkiyə və Azərbaycan keramikasının bir sıra ornamental sxem və kompozisiyalarının semantik mənasının ümumiləşdirilməsinə cəhd göstərilmişdi.

**Tədqiqatın nəzəri və praktiki dəyəri**. Hazırkı tədqiqatın nəzəri və praktiki əhəmiyyəti ondan ibarətdir ki, materialın tarixi və kulturolojı ümumiləşdirilməsi, Türkiyə və Azərbaycan keramikasının çiçəklənmə dövrü (XVI-XVII əsrlər) keramika məhsulunun ayrı-ayrı nümunələrinin təhlili nəticəsində hər iki ölkədə keramika istehsalatının formalaşmasının və inkişafının ümumi panoramı yaranır. Analitik nəticələr Yaxın Şərq regionu ölkələrinin dekorativ-tətbiqi sənəti tarixi üzrə mühazirələr üçün bir mənbə kimi maraq kəsb edir. Tədqiqatdan keramika sənəti üzrə nəzəri və praktiki kursda dərs vəsaiti kimi istifadə etmək mümkündür.

Tədqiqat geniş profilli humanitar elmlər üzrə mütəxəssislər üçün və İslam mədəniyyəti və incəsənəti ilə maraqlanan şəxslər üçün maraqlı məlumat mənbəyi ola bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "İncəsənət tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdi. Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 6 elmi məqalədə öz əksini tapmışdır, mövzu üzərində aparılan axtarışları əks etdirən məruzələr müxtəlif səpkili elmi konfranslarda dinlənilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya giriş hissəsindən, iki fəsil, dörd yarımfəsil və nəticədən ibarətdir. Dissertasiyanın mətni 138 kompüter yığımında təqdim olunub. Dissertasiyaya illüstrasiyalı albom əlavə olunur.

## Tədqiqatın əsas məzmunu

Girişdə mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

**Fəsil I. "Türkiyə keramika sənətinin bədii xüsusiyyətləri"** adlanır və orta əsrlər Türkiyə keramika sənətinin hərtərəfli təhlilinə həsr olunub. Iki hissədən ibarət olan fəslin I yarımfəslində Orta əsrlər Türkiyəsində bədii keramika sənətinin təşəkkülü və inkişaf mərhələləri təhlil edilərək Osmanlı imperiyasında keramika istehsalının tam və dolğun panoramı təqdim edilir.

Çiçəklənmə dövrü türk keramikasının səciyyəsində həlledici rol oynamış cəhətlər türk incəsənətinin bədii-estetik prinsiplərinin göstəricilərindən biri kimi çıxış edir. Osmanlı İmperiyasının mədəni ənənələrinin qaynaqlarını araşdırarkən məlum olur ki, həmin qaynaqların səlcuk türklərinin (Səlcuklar dövləti) ənənələrindən və Bizans imperiyasından irəli gəlir. Bununla yanaşı mədəniyyət abidələrinin təhlilində əsas diqqət Orta Asiyadan, İrandan və İslam dünyasının bir sıra başqa ölkələrindən gələn ənənə və təsirə də diqqət yetirilir. Xüsusi diqqət Çin keramika sənətinə yetirilir və onun Yaxın Şərq regionunun bütün ölkələrinə güclü təsiri vurğulanır.

Fəsildə Səfəvilər dövləti və Osmanlı Türkiyəsinin arasında fəal hərbi və sülhsevər qarşılıqlı fəaliyyət hazırkı tədqiqatın kontekstində çox böyük əhəmiyyət kəsb edir. Türk soltanı I Səlimin Səfəvi hökmdarı I şah İsmayıl Səfəvinin üzərində 1514-cü ildə Çaldıran döyüşündə çaldığı qələbə də hazırkı tədqiqatla bağlı qeyd edilmişdi. Iki ölkə arasında ziddiyyətlərlə və Osmanlı imperiyasında daxili çəkişmələrlə şərtlənən həmin qələbə müsəlman dünyasının siyasətində həlledici rol oynamaqdan əlavə, Türkiyənin təsviri sənətinin bir çox formalarının və bütövlükdə incəsənətinin, elminin inkişafında da həlledici rol oynamışdı. Sultan I Səlimin Təbrizi tutduqdan sonra buradan 1000-dən çox sənətkarın və rəssamın Türkiyənin İstanbul, Bursa, İznik və başqa şəhərlərinə köçürülməsi iki xalqın yaradıcılıq ideyalarının mübadiləsinə gətirib çıxardı ki, bu da incəsənətdə sinkretik formaların əmələ gəlməsinə səbəb oldu.

Osmanlı imperiyası ərazisində keramika istehsalının təşəkkül tapması və inkişafının əsas mərhələlərini araşdırılan zaman, burada dövr və mərhələ məsələsi artıq ən mübahisəli və birmənalı qarşılanmayan problem kimi təqdim olunur. Elmi ədəbiyyatda rast gəlinən hissəli təsnifat arxeoloji tapıntıların yerlərinə əsasən aparılır,

məsələn, "Qızıl Buynuz keramikası", "Dəməşq qabları" və b. Belə təsnifat metodoloji baxımdan yanlış görünür.

Bu və ya digər dövrdə istehsal olunmuş keramika nümunələrinin səciyyəvi xüsusiyyətlərinə əsaslanaraq, tədqiqatda aşağıdakı təsnifat təklif olunur: 1.erkən dövr (1480-1520) – əsasən ağ-mavi çini məmulatlar istehsalı; 2.yetkin dövr (1530-1600) – polixrom keramikasının ən parlaq nümunələrinin istehsalı; 3.son dövr (1600-1700) – İznikdə istehsal olunan məhsulun keyfiyyətinin artıq aşağı enməsi və bütövlükdə keramika istehsalının həcminin azalması müşahidə olunur.

Sadalanan mərhələlərin hər biri dissertasiyada ümumi şəkildə xarakterizə edilməkdən başqa keramika məhsulunun konkret nümunələrinin təhlili ilə və ümumi tipoloji xüsusiyyətlərinin üzə çıxarılması ilə də təqdim olunur.

Fəslin **ikinci yarımfəslində** Osmanlı Türkiyəsi keramikasının bədii xüsusiyyətləri üzə çıxarılır. Burada Osmanlı Türkiyəsi keramika məhsulunun dekor xüsusiyyətləri, ən tipik naxışları və koloristik qamması işıqlandırılır. Ondan başqa türk sənətkarlarının tətbiq etdiyi texnologiyalar, keramika kütləsinin reseptləri, boyaların kimyəvi tərkibi məsələləri də həmin yarımfəsildə təhlil olunur[21].

Keramika kütləsinin kimyəvi tərkibinin öyrənilməsi abidənin atribusiyasında əsas əlamət kimi qəbul edilib. Ondan əlavə, tədqiqatda üslubun inkişaf dinamikasını, onun təşəkkül tapmasını, çiçəklənməsi və çökməsi mərhələlərini izləmək cəhdi göstərilib. Beləliklə, Osmanlı Türkiyəsində keramika istehsalının ayrı-ayrı mərhələlər çərçivəsində tam panoramını yaratmaq üçün keramika məhsulu aşağıdakı meyarlar üzrə təhlil olunub: 1. növ – monumental/memarlıq keramikası (kaşıdanlar) yaxud dəzgah keramikası (məişət keramikası, kiçik formalı keramika) və onların istehsal mərkəzləri; 2. texniki xarakteristikalar – kütlənin kimyəvi tərkibi, boyalar; 3. ornamentasiyanın xarakteri – həndəsi, epiqrafik, qarışıq; 4. ornamentlərin əsas motivləri və məmulatların üzərində kompozisiyanın yerləşdirilmə sxemləri.

Osmanlı İmperiyasının bütün keramika məhsulu iki qrup hüdudlarında təhlil olunub. I qrupa monumental (yaxud memarlıq) keramikası, yəni memarlıq

[21] Гарбузова В.С. Из истории производства малоазийских фаянсов в XII-XIX вв. // Ученые записки ЛГУ, серия востоковедческих наук, вып.7. Изд-во Ленинградского университета. 1958, №256, с.21-40. с.23.

obyektlərinin üzlüklənməsində istifadə edilən kaşılar daxil edilir. Avropa və Asiya ölkələrində dövriyyədə olan və ev əşyaları kimi işlənməkdən əlavə interyerin bəzədilməsində tətbiq edilən məişət keramikasının müxtəlif məmulatları da həmin qrupa daxil edilir. Məlum olur ki, Türkiyədə XVI-XVII əsrlərdə keramikanın bu növündən əsasən otaqların daxili dekoru üçün istifadə olunurdu. Nəticədə, binanın, tikilinin dəqiq simasını vurğulayan bayır divarlarının hamar səthi və daxili interyerin kaşı dekorunun parıltısı, bərq vuran zəngin çalarlı koloriti və canlı xarakteri ilə kəskin təzad yaranırdı.

Türk keramikasının tərtibatında iki əsr ərzində baş verən əsas təmayülləri qonşu xalqlardan alınmış həndəsi ornamentin tədricən bitki ornamentinə çevrilməsi kimi müəyyən etmək mümkündür. Həmin bitki ornamentinin getdikcə güclənən naturalistik xarakter alması da diqqəti cəlb edir.

Fəsildə müxtəlif ornament növlərinin nəzəri əsaslarına, onların semantik mənasına xüsusi yer ayrılır. Ondan əlavə, türk sənətkarlarının yaratdığı məmulatların üzərinə salınan naxışların sistemləşdirilməsi cəhdi də göstərilib.[22] Müəyyən olunub ki, Səfəvilər kimi, türk soltanları da Çin məmulatlarını sənət məharəti və bədii keyfiyyətin nümunələri, etalonu kimi qoruyub saxlayırdılar.

Azərbaycanda olduğu kimi, Türkiyədə də Çin məhsullarının tətbiqi məqsədi ilə onların analoqlarını yaratmaq cəhdləri göstərilirdi. Həmin məhsullar sonralar hətta Avropa bazarında Çin qabları ilə layiqincə rəqabət aparmağa qadir idi. Ornamentin və kompozisiya sxemlərinin təhlili sırf Çin mənşəli motivlərini üzə çıxarmağa imkan vermişdir.

Araşdırmalar göstərir ki, türk keramikasının dekorativ bəzədilməsində orijinal şəkildə stilizə edilmiş və asanlıqla tanınan ağaclar, kollar, yarpaqlar, güllər, meyvələr xüsusi yer tutur. Türk keramikası məmulatlarının dekorunda lalələr, qərənfillər, qızıl güllər (qönçələri ilə birgə), giasint, amarillis, doqquzdon gülləri və onların yarpaqları ən çox sevilən və geniş tətbiq olunan təsvirlərdir. Onlarla yanaşı türk keramikasının dekorunda çiçəklənən gavalı, armud, şaftalı, ərik budaqları, bəzən girdə narlarla və

[22] Миллер Ю. Художественная керамика Турции. Л.: Аврора, 1972, 184 с., ил, с.34-42.; Гарбузова В.С. Из истории производства малоазийских фаянсов в XIII-XIX вв. // Ученые записки ЛГУ. Серия востоковедческих наук. Вып.7, Изд-во Ленинградского университета, 1958, №256, с.34.

dişlikli ayı pəncəsi yarpaqları ilə birləşdirilmiş irislər, pionlar, üzüm çubuqları bə üzüm salxımları da geniş yayılmışdı. Ayı pəncəsi və itburnu yarpaqlarına tez-tez rast gəlinir.

Türk məmulatlarının dekorunda meyvə ağaclarından sonra ən geniş yayılmış motiv sərv ağaclarıdır. Çoxsaylı motivlərin arasında şərtsiz birincilik qərənfillər, lalələr, qızılgül və giasintlərə məxsusdur. XVI əsrin sonunda artıq "dörd gül" (***quatrefleurs*** style) adlanan üslub formalaşır. Bu üslubda adı çəkilən dörd gülün stilizə edilmiş təsvirindən ibarət naxışlar tətbiq olunur. Osmanlı Türkiyəsinin keramikasında (xüsusən də monumental keramikada) geniş yayılmış daha bir motiv çiçəklənən ağac motividir. Bu motivin semantikasına dissertasiyada xüsusi diqqət ayrılıb[23]. Belə ki, tədqiqatçı bu motivin sakral mətnlərdə Qurani-Kərimdə və İncildə verilmiş izahını üzə çıxarır.

Tarixi və bədii şərh prosesində müəllif dönə-dönə İstanbulda və Osmanlı Türkiyəsinin başqa mədəniyyət mərkəzlərində Təbrizli sənətkarların fəaliyyəti ilə üzləşib [24]. Bir qayda olaraq, tədqiqatçılar onları İran sənətkarları adlandırır, onların sənətə gətirdiyi naxış və texnologiyalar isə İran mənşəli hesab olunur. Bununla bağlı Səfəvilər sülaləsinin əslində Azərbaycan sülaləsi olmasını və Təbrizin isə bir sıra Azərbaycan dövlətlərinin paytaxtı olduğunu qeyd etmək lazımdır. Beləliklə, təbrizli sənətkarların sənətə gətirdiyi ənənələr İran (yaxud fars) sənətinin deyil, məhz Azərbaycan sənəti ənənələri kimi tərif olunmalıdır. Bizim dövrə gəlib çatmış Azərbaycan mədəniyyəti ilə bağlı bir çox cəhətləri özündə nümayiş etdirən və dünyanın bir çox muzeylərində təqdim olunan nəhəng bədii material bu fikri təsdiq edir.

Beləlklə, Osmanlı Türkiyəsi keramikasının bədii xüsusiyyətlərini araşdırarkən məlum olur ki, türk keramikasının formalaşmasında əsas amillərdən biri Çin sənətkarlarının məhsulu ilə tanışlıq idi, məhz buna görə Çin mədəniyyətinin aşkar təsiri altında türk keramika plitələri "çini", türk keramika ustaları arasında ən çox

---

[23] Шукуров Ш.М. Искусство и тайна. М., Алетейа, 1999.-248 с. +32 с. вкл. ил. , с.115-116.

[24] Миллер Ю. Искусство Турции. М-Л.: Искусство, 1965, 105 с., с.14; Laure Soustiel. Osmanlı Seramiklerinin görkemi. XVI-XIX yüzil. Suna İnankiraç ve Sadberk Hanım Muzesi kolleksionundan Katalog İnstitut de Srance. Jackemart –Andre Muzesi. Paris. 1nisan-2 Temmuz, 2000, 222s, p.25-26.

populyar olan motivlərdən biri isə "çintemani" adlanırdı. Bundan başqa "Çin bardaqları" adlı motiv, şanagüllər, niluferi çin, "xətai" kimi motivlər türk keramika sənətində sırf Çin motivləri hesab olunur. Osmanlı Türkiyəsinin çiçəklənmə dövrü olan "polixrom dövr"ündə keramikada işlənən əsas qammalar qırmızı, firuzəyi, zeytuni-yaşıl, bənövşəyi rənglər idi. Bu dövrdə keramik plitələrinin hazırlanmasında türk ustaları mişarlanma və bir birinə salma kimi mürəkkəb texnikasından istifadə edirdilər. Bu səbəbdən plitələr iri ölçülü (bəzən 1 metrdən artıq) olur, onlara ənənəvi naxışlar sərbəst manerada salınırdı. Osmanlı Türkiyəsinin keramika məmulatlarında güllərin və meyvələrin təsviri ən çox sevilən və geniş yayılan motivlərdən idi. Türk keramikasında işlənən əksər zoomorf motivlərin genezisi Osmanlı İmperiyasının mədəni məkanında biri-biri ilə təmasda olan keçmiş mədəniyyətlərə gedib çıxır.

Dissertasiyanın **II fəsli "Azərbaycan keramika sənətinin bədii xüsusiyyət-ləri"** adlanır. Fəslin birinci yarımfəslində orta əsrlər Azərbaycan keramikasında bədii xüsusiyyətlərin formalaşması və inkişafının araşdırılır.

Keramika sənətinin təşəkkül tapmasında və formalaşmasında (meydana gələn vaxtdan çiçəklənmə dövrünə qədər, yəni XVI əsrə qədər) Təbrizdə və Azərbaycanın keramika istehsalının başqa mərkəzlərində fəaliyyət göstərən azərbaycanlı sənətkarlar çox böyük rol oynamışdılar. Bunu tarixi faktlardan başqa azərbaycanlı sənətkarların adları həkk olunmuş kaşı sənətinin nümunələri də təsdiq edir.

Azərbaycan keramikasının simasının formalaşmasında müxtəlif xalqların ənənələri iştirak etmişdi. Qədim dövlətlər – Manna və Midiya, daha sonra Albaniya və Atropatenada keramika istehsalı artıq əhəmiyyətli dərəcədə özünün müxtəlifliyi və formaların çoxluğu ilə fərqlənirdi. Azərbaycan torpaqlarının VIII əsrdə ərəb xəlifəliyi tərəfindən, sonra, XI əsrdə səlcuq türkləri tərəfindən istila olması nəticəsində yerli keramika sənətinə memarlıq abidələrinin şirli plitələri bəzədilmə ənənələri gətirilmişdi.

XIII əsrdə tatar və moğollar Azərbaycan ərazisində İlxanilər (Hulaqular) dövləti yaratmışdı. İlxanilər dövlətinin paytaxtı əvvəlcə Marağa, sonra isə Təbriz elan olunmuşdu. Nəticədə, Azərbaycan türk, ərəb, İran və Çin mədəniyyətinin kəsişdiyi

mərkəzə çevrilir. 200 ildə artıq müddətində Eldəgizlər və İlxanilər dövlətinin nəhəng ərazilərinin mərkəzi məhz Azərbaycanda yerləşirdi.

Ənənələrin konqlomeratı əzəli və sabit yerli xüsusiyyətlərlə möhkəmlənərək "Azərbaycan keramikası" adlanan parlaq, orijinal bir sənət fenomeninin meydana gəlməsi üçün zəmin yaradır. Geniş arxeoloji materiala əsaslanaraq, tam əsasla demək olar ki, Azərbaycan ərazisində istehsal olunan keramika öz tiplərinin çoxluğu və forma yetkinliyi ilə seçilirdi. Bütövlükdə, Azərbaycanın keramikası iki böyük qrupa bölünür: məişət keramikası (qeyri-suvarma və şirli) və inşaat keramikası (memarlıq keramikası-suvarma, binaların üzlüklənməsində tətbiq edilən kaşıdanlar və qeyri-suvarma keramikası, yəni kərpiclər, su boruları).

Azərbaycanlı sənətkarları artıq o dövrdə kaşı sənətinin möhtəşəm abidələrini yaratmışdılar. Onlardan Pirsaat çayında Pir-Hüseyn xanəgahının, Sultaniyədə Olcaytu türbəsinin, Qarabağlar kəndində memarlıq ansamblının, Bərdə məqbərəsinin adı xüsusən çəkilməlidir. Azərbaycan sənətkarları memarlıq abidələrinin dekorunda lüstr, minai və bu kimi bir çox başqa mürəkkəb polixrom sirə altı texnologiyalardan da geniş və çox böyük məharətlə istifadə edirdilər.

İnşaat keramikası əsasən qalın divarlı kiçik su boruları ilə təqdim olunur. Yandırılmış kərpiclərin və müxtəlif formalı kaşıların fraqmentləri də bu növ keramikaya aid edilir. Həmin kaşılar adətən mavi, yaxud qəhvəyi şirlə örtülürdü.

Memarlıq (yəni inşaat, yaxud monumental) keramika istehsalı bəzi şəhərlərdə (Bərdə, Şamaxı, Beyləqan, Gəncə, Təbriz) yerli memarlıq məktəblərinin inkişafı ilə əlaqələndirilir. Bu da öz növbəsində IX-X əsrlərdə Azərbaycan ərazisində bir sıra kiçik dövlətlərin formalaşması ilə bağlı idi. Əsas memarlıq məktəbləri – Naxçıvan, Şirvan-Abşeron zonasında və Gəncədə formalaşmışdı.

Həmin keramika XIV əsrin sonunda – XV əsrin əvvəlində, yəni Osmanlı Türkiyəsinin Bursa, İznik, Kütahiyyə kimi şəhərlərində ilk keramika emalatxanaları yarandığı dövrdə, artıq dəfələrlə yüksəliş və enmə mərhələlərini yaşamışdı.

Şirvan-Abşeron məktəbi daş divarların hamar səthi və memarlıq elementlərinin plastik işlənməsi arasında təzadlarla, Naxçıvan və Təbriz məktəbləri keramika dekorunun zəngin şəkildə tətbiq edilməsi ilə, tətbiq etmə vasitələrinin və üsulların

müxtəlifliyi ilə seçilirdi. Onu da qeyd etmək lazımdır ki, o zaman Azərbaycanda (Yaxın Şərqin başqa ölkələrində olduğu kimi) memarlıq keramikası tikililərin fasadlarının, tağların, günbəzlərin üzlüklənməsində istifadə edilməklə, binaların daxili divarlarının dekorunda da tətbiq olunurdu. Azərbaycan sənətkarları divarları başdan-başa sonu görünməyən, inkişaf edən naxışla örtürdü. Bu motivlər bir-birilə üzvi şəkildə birləşərək, bəzədilən səthi xalçaya bənzədirdi.

Dissertasiyada memarlıqda kaşı dekorunun incisi olan Pirsaat çayının sahilində tikilmiş Pir-Hüseyn xanəgahının daxili üzlüklənməsi təhlil olunur. Kaşı dekoru ilə bəzədilmiş böyük memarlıq abidələri arasında Sultaniyədə Olceytu məqbərəsi, Qarabağlar kəndində memarlıq ansamblı (XII-XIV əsr), Bərdədə məqbərə (memar Əhməd ibn-Əyyub əl-Hafiz ən Naxçıvani, 1322), Təbrizin Göy məscidi və bu kimi bir neçə abidələr xüsusən qeyd olunur.

Şirsiz keramika məmulatları, yəni gündəlik məişətdə işlənən qablar keramika məhsulunun daha qədim və böyük qrupunu təşkil edir. Azərbaycanın müxtəlif qədim şəhərlərində – ilk növbədə keramika istehsalının mərkəzləri olan Beyləqan və Bakıda məişətdə işlənən keramika məhsulunun bir çox maraqlı nümunələri aşkar edilmişdi. Bu nümunələr ən müxtəlif qruplara aid edilir. Qeyri-şirsiz keramika əsasən həndəsi (oyma və qabarıq) və bitki ornamentləri ilə bəzədilirdi.

Azərbaycanda şirli məişət keramikası VIII əsrin sonunda, yəni Azərbaycan torpaqları Ərəb xəlifələrinin hakimiyyəti altında olduğu dövrə təsadüf edir. Bu sənət növü Azərbaycanın iri sənət mərkəzləri olan Beyləqan, Gəncə, Qəbələ, Şabran və Bakıda geniş yayılmışdı. Dekorun qurulmasının prinsiplərində və üslubda olan oxşarlıqlara baxmayaraq, bu şəhərlərdə yaranan keramika məmulatları yerli, hər şəhərə xas olan xüsusiyyətlərə də malikdir. Məsələn, Beyləqanda rəngli boyalarla naxış salma yüksək inkişaf etmişdi.

Burada aşkar olunmuş keramika məmulatlarında sarı rəngin fəal şəkildə işlənməsi nəzərə çarpır. Sarı rəng də dolğun yaşıl və dolğun bənövşəyi rənglə birləşərək, qeyri-adi bir ahəng yaradırdı. Bu məmulatların dekorunda cürbəcür fiqurlar və zolaqlar vasitəsi ilə yaranmış həndəsi naxışlarla yanaşı stilizə edilmiş bitki ornamenti də geniş yayılmışdı.

Bu yarımfəsildə Azərbaycan ərazisində keramika sənətinin təşəkkül tapması və inkişafı izlənir. Ondan əlavə, Azərbaycan keramika sənətinin müxtəlif dövrlərdə yaranmış ən parlaq nümunələrinin təhlili verilir, azərbaycanlı sənətkarların işlətdiyi əsas texnologiya vasitələri və prinsipləri də izah olunur[25].

Azərbaycanın bədii keramika sənəti Yaxın Şərq keramikasının texnologiyalarını və bəzədilmə üsullarını mənimsəyib, ondan bəhrələnərək, keramika sənətinin əsas prinsiplərinə riayət etməklə yanaşı, özünün, sırf Azərbaycan üslublu, orijinal üsul və vasitələr yaratmağa nail olmuşdu.

Beləliklə, Azərbaycanın müxtəlif rayonlarında sistematik olaraq aparılan arxeoloji qazıntılar nəticəsində zənginləşən keramikadan ibarət nəhəng arxeoloji material, qədim dövrdən qalan dulusçuluq mərkəzlərinin aşkar olunması – bunların hamısı qədim Azərbaycan torpağında keramika istehsalının çoxəsrlik ənənələrə malik olmasını təsdiq edir.

**II fəslin ikinci yarımfəslində** Səfəvilər dövrü Azərbaycan keramika sənətinin müfəssəl formal və bədii təhlili təqdim olunur və təhlilə tarixi dəlillər cəlb olunur. Yazılı mənbələrə görə Azərbaycanda keramika qablarının və o zaman memarlıq abidələrinin üzlüklənməsində istifadə edilən boyalı və şirəli kərpiclərin istehsal mərkəzləri Təbriz, Ərdəbil, Şamaxı, Bakı, Naxçıvan, Gəncə şəhərlərində yerləşirdi.

Öyrənilən dövrdə keramika məmulatlarının dekorunda bitki və zoomorf motivlərlə, mənzərə, ənənəvi ornamentlə yanaşı insan təsvirinə də böyük maraq müşahidə olunur, bu da dekorun fərqli xüsusiyyəti kimi qiymətləndirilə bilər. Bir qayda olaraq, əşyanın üzərində lirik səhnələr, yaxud Səfəvi kübarlarının həyatından səhnələr – ziyafətlər, təbiətin qoynunda gəzintilər, ov səhnələri təsvir olunurdu. Keramik qablarının üzərində olan təsvirlərin fraqmentlərində xalça və miniatürlərlə olan təsvirlərlə oxşarlığı aşkar nəzərə çarpır.[26]

Səfəvilər dövrü memarlıq keramikası sahəsində iki abidə çox görkəmli yer tutur. Bunlardan biri Səfəvilər sülaləsinin memorial kompleksi (XVI əsrin əvvəli), ikincisi

---

[25] Ахмедов Р.Дж. Керамика Баку IX-XVII вв. Баку: Элм, 1992; Каджар Ч. Искусство Азербайджана. Средние века. Баку, б/г, 348 с; Наджафова Н.Н. Художественная керамика Азербайджана XII-XV вв. – Баку: изд-во АН Азерб. ССР, 1964, 140с., илл.; Наджафова Н. Художественная керамика. Баку: Язычы, 1983, 40 с.; Əfəndi R. Azərbaycan xalq sənəti. Bakı: İşıq, 1984, 204 c.

[26] Əfəndi R. Azərbaycan xalq sənəti. Bakı: İşıq, 1984, s.74.

isə XVII əsrin əvvəlində, yəni Şah Abbasın dövründə İsfahanda tikilmiş Şah meydan kompleksidir (Şeyx Lütfallah məscidi və Məsçi-de-Şah).

Polixromiya texnikası ilə işlənmiş və Azərbaycanın orta əsrlər dövrü memarlığına xas olan başqa dekor prinsipləri özünün tam inkişaf etməsini, yetkinliyini Ərdəbilin Şeyx Səfi kult kompleksində nümayiş etdirir. İsfahandakı Şah meydanı kompleksində də orta əsrlər dövrü Azərbaycan mədəniyyətinin ornamental sisteminin əsasını təşkil edən bütün elementlər birləşib. Bu elementlər, yəni islimi, gül motivləri, gülbəndlik, əfşan, xətai, turunc, şam, qubpa, epiqrafik dekor – hamısı vahid, daim dövr edən spiral sxemi əsasında cəmləşir[27].

Keramika dekorunu təşkil edən elementlərin müfəssəl təhlili göstərir ki, tətbiqi sənətin bütün növlərində (kitab tərtibatı sənətini də daxil etməklə) geniş tətbiq edilən naxışlarla yanaşı sənətkarlar öz işlərində kökü daha qədim dövrə gedib çıxan kompozisiyalara, üsul və ideyalara da dönə-dönə müraciət edib, onları tətbiq ediblər. Bu da Azərbaycan mədəniyyətinin, bədii ənənələrin konkret olaraq, keramikanın bu mədəniyyətlərlə ayrı-ayrı dövrlərdə təmasda olmasını təsdiq edir.

Dissertasiyada Səfəvilər dövrü Azərbaycan memarlıq keramikasının daha bir nümunəsi, Viktoriya və Albert muzeyinin kolleksiyasında saxlanan (inv.N139:1-1891) şirəli-boyalı keramika plitələrdən qurulmuş pannosu təhlil olunur. Bu panno Şah Abbas dövrü İsfahan saraylarından – Çihil-Sütun sarayında əldə edilib və XVII əsrə, yəni 1647-ci ilə aid edilir[28].

Tədqiqatda Səfəvi Azərbaycanında istehsal olunmuş məişət keramikasına aid nəhəng materialın sistemləşdirilmişdir. Burada Səfəvilər dövründə keramika istehsalında iki sabit təmayülün mövcud olmasını göstərilir. Onlardan biri Çin keramikasının yerli məhsullara sabit və hərtərəfli təsiri, və Azərbaycan və İran sənətkarları tərəfindən Çin nümunələrinin yamsılanması, digəri isə əvvəlki dövrlərdə keramika istehsalında tətbiq olunan texnologiyaların, naxış və formaların bərpası (yaxud dirçəlməsi), onların yenidən inkişaf etdirilməsi idi.

---

[27] Алиева К. Тебризская ковровая школа. XVI-XVII вв. Баку: Элм, 1999, 268 с., с.33; 53-54; Стародуб Т.Х. Секрет неповторимости. // Azərbaycan xalçaları. Cild 3, N9, 2013, с. 108-117.

[28] http:/www.vam.ac.uk./content/artiles/e/explore-the-pinic-tile/panel

Dünyanın ən böyük muzeylərində və şəxsi kolleksiyalarda saxlanılan keramika nümunələrinə ayrı-ayrı müəlliflər tərəfindən verilmiş təsnifatını ümumiləşdirib və elmi dövriyyədə istifadə olunan təsnifatları nəzərə alaraq, bizim dövrə gəlib çatan müxtəlif formalı və müxtəlif təyinatlı keramik qablarının nəhəng kütləsini üç böyük qrupda təhlil edilir. Birinci qrupa Çin keramikasını yamsılayan keramika məhsulları daxil edilir. İkinci qrupa qədim, ənənəvi naxışların, formaların, tiplərinin bərpası olan keramika məmulatları daxil edilir. Üçüncü qrup polixrom sirə altı keramika kimi səciyyələnir. Həmin qrupun daxilində "kubaçi keramikası" adlanan məmulatlara xüsusi diqqət yetirilir.

Səfəvilər Azərbaycanında istehsal olunmuş və hal-hazırda dünyanın ən böyük muzeylərində və şəxsi kolleksiyalarda saxlanan çoxsaylı keramika məmulatları dissertasiyada formal və bədii cəhətdən müfəssəl təhlil olunur.[29] Birinci (yəni Çin təsiri ilə səciyyələnən) qrupa aid edilən məmulatlarla bağlı belə nəticə çıxarılıb ki, iki əsr ərzində Çin təsiri Səfəvilər dövrü keramika istehsalında sırf yerli xüsusiyyətlərə uyğunlaşmışdı. Beləliklə, Çin üslubu keramika qablarının dekorunda aradan götürüldüyü vaxtda, yəni XVII əsrin sonunda yerli sənətkarlar bu üslubu artıq "özünkü" etmişdi. Belə qablar Azərbaycanın bir çox keramika istehsalı mərkəzlərində – Şirazda, Məşhəddə, Yezddə, Kermanda, Zərənddə, Təbrizdə, Ərdəbildə, Şabranda, Şamaxıda istehsal olunurdu.

Səfəvilər dövründə Azərbaycanın keramika istehsalı mərkəzlərində hazırlanan bir çox məmulatlarda stilizə olunmaları, keramika dekorunda qədim sxem və üslubların əlamətlərini aşkar etmək mümkündür. Bu üslub və üsulların kökü qədim dövrlərə – Səlcuqlar dövrünə və hətta daha qədim sivilizasiyalara gedib çıxır. Səfəvilər dövrü keramikasının (yəni memarlıq və məişət keramikası) üzərində rast gəlinən müxtəlif naxışların ondan da qədim dövrlərlə genetik əlaqədə olması da nəzərə çarpır.

İslimi, xətai, əfşan (spiral kompozisiyalar), "bulud" (Çin buludları) və başqa kompozisiyaların, yəni XVI-XVII əsrlərdə keramika məmulatlarının üzərində işlənən ornamentlərin və praktiki olaraq öyrənilən regionun bütün ornamental sisteminin

[29] http:/www.metmuuseum.org/collections/search-the-collections/453324?img=4

genealogiyası əsrlərin dərinliyinə gedib çıxır. Bu ornamentlər keramikadan başqa digər sənət əsərlərində və dekorativ-tətbiqi sənət növlərində, yəni xalçaçılıqda, parçalarda, metaldan və ağacdan hazırlanan əşyalarda da tətbiq olunurdu. Əslində həmin ornamental sistem feodalizm dövrü İran və Azərbaycan mədəniyyəti arasında güclü, birləşdirici amil kimi çıxış edirdi.

Keramika sənətinin təhlil olunmuş nümunələri keramikanın dekorativ-tətbiqi sənətin başqa növləri ilə, ilk növbədə tekstil və xalçaçılıqla üslub cəhətdən əlaqəli olmasını aydın nümayiş etdirir. Bu da Səfəvilər Azərbaycanının çiçəklənmə dövründə vahid sənət üslubunun formalaşmasını təsdiq edir.

Fəsildə Səfəvilər dövrü Azərbaycan keramikasının bədii təhlili aparılır, onların ornament, dekor və kompozisiya xüsusiyyətləri araşdırılır, Azərbaycan sənətkarlarının tətbiq etdiyi texnologiyalara, konkret olaraq, keramika mozaikası və ***cuerdaseca*** texnikasına xüsusi diqqət yetirilir.

Hər iki texnika açıq rəngli keramika kütləsinin tətbiq edilməsi ilə bir səciyyələnir. Silisium oksidi əsasında hazırlanmış həmin kütlə hələ Səlcuklar dövründə ixtira olunmuşdu. Bu kütlənin tərkibinə şüşə pastası (fritta), onun açıq rəngdə olmasını təmin edən kaolin və çöl şpatı daxil idi. Orta Asiyada həmin kütlə "kaşın" adlanırdı. Bu ad fars dilinin "kaşı" sözü ilə bağlı idi (fars dilində "kaşı" keramika üzlük plitkaları deməkdir, bu ad da öz növbəsində İranın Kaşan şəhərinin adı ilə bağlı idi, çünki Kaşan şəhəri məhz üzlük plitələrin istehsalı ilə şöhrət qazanmışdı).

Səfəvi sənətkarlarının tətbiq etdiyi "qara kontur daxilində polixrom keramika" texnikası yaxud *cuerdaseca* Osmanlı sənətkarlarının işlətdiyi "quru qaytan" *cuerdaseca* texnikasından həm texnologiya, həm nəticə baxımından çox fərqlənirdi. Həmçinin, həmin texnikanı ispan *cuerdasec* texnikası ilə də eyniləşdirmək olmaz, çünki ispan sənətkarları tamam başqa texnoloji proses tətbiq edirdilər[30].

Odur ki, Səfəvilər dövrünün Azərbaycan tarixində yüksək inkişaf nöqtəsi və eyni zamanda tamamlayıcı, hətta həlledici bir mərhələ olmasını tam əsasla israr etmək mümkündür. Həmin mərhələdən sonra ölkənin tarixində tam yeni inkişaf

---

[30] Стародуб Т.Х. Секрет неповторимости. // Azərbaycan xalçaları. Cild 3, N9, 2013, сс. 108-117.

müşahidə olunur. Bu səbəbdən, Yaxın Şərq regionunda İslam incəsənətinin "simasını" müəyyən edən dekor sisteminin əsas prinsip və elementlərini xülasə şəklində yekunlaşdırmaq çox mühüm bir məsələ kimi ortaya çıxır.

Bu bölmədə Azərbaycan sənətkarlarının yüzilliklər boyu tətbiq etdiyi ən mühüm ornament motivləri – xətai, islimi, bulud, əfşan, şəms və b. təqdim olunur. Bununla yanaşı hər motivin struktur xüsusiyyətlərinin tərifini verilir və onların sakral, semantik mənası açıqlanır.

Araşdırmalar göstərir ki, Səfəvilər dövrü Azərbaycanın polixrom keramikasında insanların təsvirinə artan maraq diqqəti cəlb edir. Bu təsvirlər ən müxtəlif xarakter daşıya bilərdi, bəzən bu insan portretləri olurdu və portretdə insanların üz cizgiləri, yaxud onların müəyyən emosional durumu da öz əksini tapırdı. Bu baxımdan həmin təsvirlərin miniatür rəngkarlığı ilə oxşarlığı üzə çıxır. Canlıların, heyvanların təsvirləri olan qablar, buludlar, yaxud camlar da keramika məmulatlarının böyük qrupunu təşkil edir. Canlıların təsvirində rəssamlar böyük müşahidə qabiliyyəti nümayiş etdirirdilər.

Tədqiqatlar göstərir ki, Səfəvilər dövrü Azərbaycan memarlıq keramikasında ayrı-ayrı naxış və kompozisiyaların arasında varislik əlaqəsi və eyni motivlərin tətbiq olunması müşahidə olunur. Daha erkən dövrə aid edilən ayrı-ayrı motiv və kompozisiyalarla əlaqə, dekorativ-tətbiqi sənətin müxtəlif sahələrində eyni motivlərin işlənməsi dekorda vahid üslub sisteminin formalaşmasını göstərir.

Aydındır ki, motivlərin belə vəhdəti yaradıcı fəaliyyətin bütün sahələrini əhatə edir və onların təkcə formal, estetik ifadəliliyi ilə şərtlənə bilməzdi. Burada, sözsüz ki, ümumi və çoxsahəli ideya mövcuddur və vahid dekor sistemi də həmin ideyanın ifadə edilməsinə qulluq etməli idi. Həmin vahid və qeyri-şərtsiz ideya da şübhəsiz ki, yalnız İslam dini ola bilərdi.

Ornamentin sakral mahiyyəti, onun orta əsrlər dövründə Azərbaycanda (ümumiyyətlə Yaxın Şərqin müsəlman ölkələrində və Mərkəzi Asiyada) filosoflar, şair və rəngkarlar, sənətkarlar tərəfindən anlanması o dövrün müasirlərinin yazıları, şərhləri ilə təsdiq olunur. Bu yazıları, şərhləri fəlsəfə və incəsənət üzrə müxtəlif elmi əsərlərdə, o dövrün şairlərinin əsərlərində tapmaq mümkündür.

Bütövlükdə ən müxtəlif qruplara aid olan məmulatlar təkcə naxış salma baxımından deyil, dulusçuluq sənəti əsəri kimi də özünün yüksək səviyyəsi ilə seçilirdi. Avropa, Asiya və ABŞ muzeylərində və şəxsi kolleksiyalarda su qablarının, badələrin, camların və qədəhlərin, başqa qabların incə, dəqiq forması deyilənləri təsdiq edir. Keramika istehsalının yerli təcrübəsində isə iki sənət növü müəyyən edilmişdi – dulusçu və dekorator. Bunu çaydanların birində olan yazı da təsdiq edir. Həmin yazıdan məlum olur ki, məmulat iki sənətkar – dulusçu və dekor-rəssamı tərəfindən hazırlanıb.

Mütəxəssislər keramika məhsulunun fərqlənməsində, qruplara bölünməsində fərqli meyarlara əsaslanır. Bunlar keramika "xəmirinin" keyfiyyəti (bu daha erkən dövrdə, yəni XVI-XVII əsrlərdə emal olunan məhsullara aiddir və bu məhsullar daha yaxşı qalıb), naxış salma texnologiyası (fırça yaxud anqob üzərində oyma), dekorun keramika səthində yerləşdirilməsi (yəni dekorun dəqiq şəkildə zonalara salınması yaxud formanın naxışla tam doldurulması (hüdudların neytral qalması şərti ilə) prinsipləri ilə bağlıdır[31].

Səfəvilər dövründə istehsal olunan qabların dekorunda tətbiq edilən rəng qammasına xüsusi diqqət yetirilir.[32] Səfəvilər dövlətində dövriyyədə olan qabların təhlili dekorda bir qədər tutqun, donuq rənglərə üstünlük verilməsini göstərir. Monoxrom şirə örtülmüş qablar da küllü miqdarda istehsal olunur. Şirə adətən təmkinli çalarları, yaxud da iki təzadlı ya da bir-birini tamamlayan tonları ilə seçilirdi.

Belə məmulatlarda rəng (yaxud rənglər) öz gözəlliyini tam dolğunluğu ilə nümayiş etdirirdi. Şirənin qalın fakturası da monoxrom qablara əlavə estetik ifadəlilik əlavə edirdi. O dövrün keramika məhsulunda keçid, aralıq, qarışıq tonların çoxluğu, müxtəlifliyi nəzərə çarpır. Belə hallarda rəngləri müəyyənləşdirmək, onların dürüst, dəqiq tərifini vermək daha çətin olur. Rənglərin çalarlarında özünü göstərən

---

[31] Шлыкова Т.В. «Искусство иранской «кубачинской» керамики в контексте истории бытования и реставрации памятников.». Дисс. на соискание уч. степени кандидата искусствоведения. Спб, 2010.

[32] A Survey of Persian Art/From Prehistoric times to the Present/Editor Arthur Upham Pope. IV,V,VI. Oxford University Press, London & New-York, 1939, p. 1647.

intellektuallıq Səfəvilər dövrü Azərbaycan sənətkarlarının, rəngkarların yüksək mədəni səviyyəsindən xəbər verir.

Zəngin və maraqlı materialın, yəni Səfəvilər dövrü Azərbaycanın keramika qablarının və memarlıq keramikasının təhlili bu regionda XVI-XVII əsrlərdə incəsənətin və müxtəlif peşə növlərinin yüksək səviyyədə inkişaf etdiyini bir daha əsaslı şəkildə təsdiq edir. Həmin yüksək səviyyə bir tərəfdən Səfəvilər cəmiyyətinin həyatının ümumi "qurs", duyulan fonunu yaradan fakturasını təşkil edirdi.

Digər tərəfdən istehsal olunan məhsulun keyfiyyəti, onun koloritinin inanılmaz zənginliyində və incəliyində özünü büruzə verən bədii xüsusiyyətləri Səfəvilər dövlətinin yüksək mədəniyyətini nümayiş etdirir. Bu mədəni səviyyəyə təkcə yüksək, kubar təbəqə, intellektual elita, yəni filosoflar, rəngkarlar, alimlər deyil, sənətkarlar da malik idi. Ən müxtəlif peşə sahibləri – toxucular, dulusçular, cildçilər və b. öz sənət sahəsində dərin biliklərə, "qızıl əllərə" malik olmaqla yanaşı, ümumi mədəni səviyyəsi, estetik zövqü ilə də seçilirdi.

Dissertasiyada aparılmış iki mədəniyyətə aid olan materialın müqayisəsi hər iki mədəniyyətdə mövcud olan çoxsaylı xarakteristika və xüsusiyyətlərin arasından ən orijinal, sırf yerli xüsusiyyətləri ayırmağa imkan verir. Digər tərəfdən türk və Azərbaycan sənətkarlarının istehsal etdiyi keramika məmulatlarının müfəssəl və dərin təhlili onların bədii dəyərini nümayiş etdirmişdir. Həmin dəyərlərə görə artıq 200 ilə yaxındır ki, dünya bütövlükdə İslam mədəniyyətinə və onun tərkib hissəsi olan keramikaya xas olan forma mükəmməlliyinə və bədii həllin incəliyinə valeh olur.

1. Beləliklə, aparılan təhlil nəticəsində məlum olmuşdur ki, orta əsr Azərbaycan keramikasında iki əsas istiqamət – monumental (memarlıq) və məişət keramikası mövcud idi. Memarlıq keramikasına memarlıq qurğularının kaşı plitələri ilə tərtibatı, məişət keramikasına müxtəlif çeşidli qablar daxil edilirdi. Azərbaycanda memarlıq abidələrinin tərtibatında tətbiq edilən dekorlar üç istiqamətdə inkişaf etmişdir: frizləri yaradan dördkünc plitələr, divarları xalça şəklində örtən səkkizguşəli ulduz formalı kaşılar və yığma (qurama) naxışlı pannolar. Səfəvilərin keramika istehsalatında Çin təsiri sırf lokal, yerli xüsusiyyətlərə uyğunlaşdırmış və keramika qablarından Çin üslubu yox olan dövrdə (XVII əsrin sonu) yerli

sənətkarlar bu üslubu artıq "özününküləşdirmişdilər". Türkiyənin həmdövr keramika sənətində olduğu kimi, Azərbaycan keramika sənətində də sırf Çin motivləri hesab olunan "Çin bardaqları", şanagüllər, niluferi çin, "xətai" kimi motivlər tətbiq edilirdi. Çin keramikasını xüsusiyyəti yüksək qiymətləndirilən xətli oyma Səfəvi dövrü azərbaycanlı sənətkarları tərəfindən təqlid edilirdi. Səfəvilər dövrünün memarlıq abidələrinin dekor sistemində istifadə olunan kaşılarda ənənəvi bitki mənşəli motivlərdən başqa mühüm rolu həndəsi naxışlar və epiqrafik ornament oynayırdı. Bu dövrün məişət keramika məhsullarında isə insan obrazı başqa motivlərdən üstün olmuşdur.

**Nəticədə** Türkiyə və Azərbaycan keramika istehsalının təşəkkül tapması və inkişafının əsas xüsusiyyətləri, oxşar və fərqli cəhətləri üzə çıxarılmışdı:

1. Azərbaycan ərazisində keramika istehsalının tarixi minilliklərə bərabərdir, Osmanlı keramikası haqqında isə XIV əsrdən başlayaraq danışmaq mümkündür;

2. Azərbaycanlı sənətkarlar orta əsrlər Türkiyə keramikasının təşəkkül tapmasında və inkişafında fəal iştirak etmişlər;

3. həm Türkiyə, həm də Azərbaycan keramika məhsulları bütövlükdə iki böyük qrupa bölünür: memarlıq və məişət keramikasına;

4. Azərbaycan və türk ustaları Çin keramikasından təsirlənərək bu ənənələri davam etdirmişlər;

5. Azərbaycanda memarlıq keramikası tikililərin xarici tərtibatı ilə yanaşı binaların daxili divarlarının dekorunda da tətbiq olunurdu. Türkiyədə isə keramikanın bu növündən əsasən otaqların daxili dekoru üçün istifadə olunurdu;

6. Türkiyədən fərqli olaraq, Azərbaycanda şırli məişət keramikası və kaşılarla yanaşı şirsiz inşaat keramikası da istehsal olunurdu;

7. Memarlıq abidələrinin keramika tərtibatında türk sənətkarları bir iri naxışdan (buket, medalyon, budaqları sayrışan iki çiçəklənən ağac) ibarət olan ayrı-ayrı kompozisiyalar tərtib edirdilər. Azərbaycan sənətkarları isə divarları başdan-başa sonu görünməyən, inkişaf edən naxışla örtürdü;

8. Hər iki ölkədə memarlıq abidələrinin tərtibatında epiqrafik ornament əhəmiyyətli yer tuturdu;

9. Türkiyə keramikası həmdövr Azərbaycan keramikası kimi ağ anqob üzərində metal oksidləri ilə naxışlanır, sonra isə şirlə örtülürdü;

10. türk keramikasının tərtibatında bitki ornamenti aparıcı rola malik olduğu halda Səfəvilər dövrü Azərbaycanın polixrom keramikasında insanların təsvirinə də diqqət yetirilir;

11. Türk keramikasında polixromiyaya daha çox meyl olduğu halda, Azərbaycanda qabların monoxrom həllinə üstünlük verilirdi;

12. Türk ustaları dəqiq kompozisiya sxemlərini daxilində sərbəst əyilgən azad rəsmlərə üstünlük verir, Azərbaycan ustaları isə keramik qabların tərtibatında daha qaydalı, kanonlaşmış, sırf ənənəvi mövqedən yanaşırdılar.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**

1. Об одном мотиве в росписях керамики Османской Турции эпохи расцвета // Материалы (международной научно-практической) конференции 22-25 октября 2014 года. Пятигорск 2014 с. 140-144.

2. К вопросу о принципах декорирования Изникской керамики, эпохи расцвета Османской империи // «Поиск». Международный научный журнал-приложение Республики Казахстан. №1(1)/2014, с.32-37.

3. К вопросу об основных чертах Азербайджанской керамики эпохи Сефевидов (на примере одного памятника архитектурном керамики) // "Elmi əsərlər" Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin toplusu, №17. Bakı, 2014. s. 216-221.

4. Orta əsrlər Türkiyə bədii keramikasına inkişaf tarixi // "Mədəniyyət dünyası" Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin toplusu, XXI buraxılış. Bakı, 2013, s. 190-194.

5. Osmanlı Türkiyəsinin inkişaf dövründə keramika sənətinin bədii xüsusiyyətləri // "Azərbaycan xalçaları". № 8, 2013, s. 36-47.

6. Azərbaycanda keramika sənətinin inkişaf tarixi və növləri // "Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyası. Memarlıq Şəhərsalma tarixi və bərpası". № 2, (10), Bakı, 2015, s.184-191.

7. Türkiye'de bedii seramik sanatının bazı tarihsel sorunları // Değişim Rüzgarı, Gazı Antepte, noyabr, 2015, s.58-59.

***Мухаммед Давуд оглы Алиев***

## Художественные особенности керамики Турции и Азербайджана

Диссертация посвящена сравнительному обзору керамической продукции Турции и Азербайджана XVI-XVII веков, то есть периода расцвета этих государств в Османский и Сефевидский периоды. Сама тема работы, цели и задачи, стоявшие перед автором, предопределили структуру исследования. Диссертация состоит из введения, двух глав и заключения, списка использованной литературы и альбома иллюстраций.

**Глава I – «Художественные особенности керамики Турции»** посвящена всестороннему рассмотрению особенностей керамики, произведенной в Турции в средневековый период. В двух параграфах последовательно рассмотрено становление и этапы развития художественной керамики средневековой Турции, и выявлены художественные особенности керамики Османской Турции, где анализу подвергаются особенности декора, выявляется семантическое значение отдельных мотивов, а также особенности колорита и вопросы технологии.

**Глава II – «Художественные особенности керамики Азербайджана»** так же состоит из двух параграфов, где последовательно рассмотрено становление и этапы развития художественной керамики средневекового Азербайджана, и выявлены художественные особенности керамики эпохи Сефевидов, где анализу подвергаются особенности декора, выявляется семантическое значение отдельных мотивов, а также особенности колорита и вопросы технологии.

**В заключении** подводятся итоги исследованию.

*Mohammed Davud oglu Aliyev*

**Artistic Peculiarities of Turkish and Azerbaijan Ceramics**

The dissertation is devoted to the comparative survey of the ceramic products of Turkey and Azerbaijan in the $16^{th}$-$17^{th}$ centuries, i.e. the flowering time of these countries during the Ottoman and Safavid periods. The subject of the thesis, the goal and the task which the author had set to himself predetermined the framework of the survey.

The dissertation consists of the introduction, two chapters, the conclusion, references and the album of illustrations.

**Chapter One – "The Artistic Peculiarities of Turkish Ceramics"** – gives a comprehensive survey of the peculiarities of the ceramic articles, produced in Turkey in the Middle Ages. The two paragraphs of the thesis give successive study of the origin and the stages of the development of ceramics in Medieval Turkey and reveal the artistic peculiarities of ceramics in Ottoman Turkey, where all features of the décor are analyzed, semantic meaning of different motives, and also peculiar coloring and technology issues are detected.

**Chapter Two – "The Artistic Peculiarities of Azerbaijan Ceramics" –** consists of two paragraphs, where the origin and the stages of the development of ceramics in Medieval Azerbaijan are successively studied and all features of the décor are analyzed, semantic meaning of different motives, and also peculiar coloring and technology issues are detected.

**The Conclusion** summarizes the survey.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ

*На правах рукописи*

**МУХАММЕД ДАВУД оглы АЛИЕВ**

# ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ КЕРАМИКИ ТУРЦИИ И АЗЕРБАЙДЖАНА

**Специальность:** 17.00.04 – Декоративно-прикладное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора философии
в области искусствоведения

**БАКУ – 2016**